Şirxan Aranlı



# Kiçik toy əhvalatı

## (Yumoristik novella, olmuş əhvalat)

Şənbə günü kitabxanadan qayıdan Elxan müəllimin yolu Familin şəkilxanasının yanından düşdü. Zehni yorğun olduğundan fikirləşdi ki,elə keçim Famil müəllimin yanına, bir az hal-əhval tutaq.

Famil ixtisasca ali təhsilli tarix müəllimi idi. İnstitutu qurtarandan sonra ucqar kənddə təyinatla müəllim işləyirdi. Nə qədər çalışırdısa təhsil şöbəsinin müdiri onun iş yerini rayon mərkəzində olan məktəblərindən birinə dəyişmirdi. Axırda özü iş yerini rayon mərkəzinə dəyişdi, ancaq müəllim kimi yox, fotoqraf kimi.

Famil müəllim şəkil çəkməyi hələ tələbə vaxtı evində kirayədə qaldığı fotoqraf Cəmildən əməlli-başlı öyrənmişdi, hətta hərdən ona kömək də edirdi. İndi belə məqamda öyrəndiyi bu sənət karına gəldi. Bax, belə yerdə atalar deyib:

”Sənətin pisi-yaxşısı yoxdur, yaxşı sənətkarın həmişə yeməyə çörəyi var”. Bəli, Famil müəllimin də indi çörəyi oldu, özü də yağlı çörək. Sənəti yaxşı bildiyindən qısa müddətdə rayon mərkəzində yaxşı fotoqraf kimi tanındı, müştərilər əlindən rahatcılığı olmadı. Hətta müəllimlikdə bir ayda qazandığı məvacibi fotoqraflıqda bəzən bir gündə qazandı. Müəllim kimi yaxşı tanınmayan Famil müəllim, fotoqraf Famil kimi adla deyildi. Bu işdə xoş rəftar, söhbətçil olmağı da onun karına gəldi.

Xülasə, Elxan müəllim fotoqraf Familin şəkilxanasına döndü. Görüşüb, hal-əhval tutdular.

Fotoqraf Famil:

-Ay Elxan müəllim, nə yaxşı gəldin, elə özüm sənə zəng etmək istəyirdim.

-Xeyirdirmi?

-Xeyirdir,qardaş, sabah günorta bir bizə təşrif buyurarsan, balaca Əli balanı kəsdirmək istəyirəm.

Söz əvvəl Elxan müəllimə çatmadı:

-Necə yəni kəsdirmək istəyirsən, Əli bala quzudur bəyəm?

-Quzu deyil ey, quzubaladır. Sünnət elətdirmək istəyirəm.

-Hə, daha denən onun kiçik toyunueləmək istəyirsən də, Allah mübarək eləsin.

-A kişi,toy nədir, elə beşon nəfər sənin kimi yaxın dost tanışı dəvət eləmişəm ki, oturub bir yaxşı yeyəkiçək. Adil müəllimlə, Rafiq müəllimə də demişəm, elə bir yerdə gələrsiniz.

-Baş üstə,-deyib Elxan müəllim ondan ayrıldı.

Səhəri günü Elxan müəllim saat on birdən sonra fotoqraf Famil gilə getməyə hazırlaşdı. Evdən çıxanda fikirləşdim ki, yaxşı, çox da toy eləmir, pul yığmır, axı əliboş da getmək olmaz, onda gedim mağazadan, barı uşağa bir hədiyyə alım. O elə də elədi, yolunu ”Uşaq aləmi” mağazasından salıb Əli bala üçün (yaxın adamlar onu belə çağırırdı), on altı manat verib yaxşı uşaq maşını və təyyarə aldı. Pulunu verib bükdürmüşdü ki, bir də gördü, Adil müəllimlə Rafiq müəllim içəri girdilər. Görüşüb hal-əhval tutdular. Rafiq müəllim: Elxan Müəllimə

-Müəllim, evli də deyilsən, bu nədir uşaq oyuncaqları alırsan?

-Familgilə gedirəm, uşağın xeyir işidir, yəqin sizə də deyib.

-Elə biz də ora gedirik, dedik, uşağa bir şey alaq, əliboş getməyək.

-Lap yaxşı, elə mən də bunları Əlibala üçün almışam.

-Onda biz də başqa şey alaq, daha sən oyuncaq almısan.

Hər ikisi öz aralarında fikirləşdi, ölçüb, biçdilər və uşaq paltarı almaq qərarına gəldilər. Adil müəllim dörd yaşında uşaq kostyumlarının qiymətini soruşdu. İyirmi yeddi manatdan aşağı uşaq kostyumu olmadı. Xoşları gələn bir kostyum alıb baxdılar. Qiyməti otuz iki manat oldu. Hər ikisi əllərini ciblərinə salıb araşdırdı. Ayın son günləri olduğundan və hələ maaşa olmadıqlarından hər ikisi ciblərindəki puldan narahat idi. Adil müəllimin cibindən on yeddi, Rafiq müəllimin cibindən isə on doqquz manat çıxdı. İkisi birlikdə otuz iki manata kostyumu aldılar.

...Familgildə geniş qonaq otağında xeyli adam toplaşmışdı. Hamısı da özü kimi sənətkarlar idi, dəmirçi, dərzi, pinəçi, saatsaz və sair. İyirmi beş, otuz adam arasında biz üç müəllimdən başqa ziyalı yox idi. Ona görə də məclis başlayan kimi dilli-dilavərlik edən dəmirçi Əli ayağa durub dedi:

- Yoldaşlar, biz hamımız savadsız sənətkarlarıq, - dedi, - aramızda hamımızın hörmət elədiyi üç nəfər müəllim var: Elxan müəllim, Adil müəllim, bir də mənim qonşum Rafiq müəllim. Təklif edirəm ki, məclisimizə ağsaqqallığı onlar eləsin, necə bilirsiniz?

-Yaxşı olar, yaxşı olar,- yerdən səslər eşidildi.

Süfrəyə növbə növ yeməklər, meyvələr gətirildi, dolma, bozbaş, tikə kabab, lülə kabab, hündüşka kababı və sair. Çəngəl-bıçağın səsi otağı bürüdü, adamların səsi eşidilməz oldu.

Birdən dəmirçi Əlinin amiranə səsi eşidildi:

-A yoldaşlar, bir başınızı qaldırın, müəllimlərimizi eşidək.

Yenə də yerdən səslər eşidildi:

-Buyursunlar, buyursunlar.

Müəllimlərin arasında yaşlısı Adil müəllim idi. Ona görə də ilk xeyir-duanı o, verdi, badələr cingildəyib, boşaldı. Sonrakı sağlıqları Rafiq müəllim, Elxan müəllim dedi. Yenə də badələr cingildəyib, boşaldı.

Hamı iştahla yeyir, iş yoldaşları olan sənətkarlar məzəli zarafatlarından qalmırdılar:

-Ayə, kabab gəldi, daha dolmaya, bozbaşa əl vuran yoxdur!..

-A kişilər, Həsən harda kabab tikəsinin irisi var, onu seçib götürür.

- Temir də ki, hündüşka budu yeyir də, başqa əti dilinə vurmaz.

-Sən öləsən, yalan deyirsən, yediyim bud deyil, buddıbıdır.

-Ayə, müəllimlərdən ayıbdır, ağzınıza gələni danışmayın,-bu dərzi Ramizin, sözü idi.

Hər üç müəllim belə sayılıb-seçildiyinə xoşhal olur, daxilən qürrələnirdilərki məclisdə başdılar, hamı onlara hörmət qoyur, onları sayır. İştahları güc gəlsədə kabab tikələrinidə ehtiyatla, ədəb-ərkanla yeyirdilər.

Məclisin şirin yerində otağın aşağısına, qapının yanına balaca bir stol və qarşısına bir stul qoyuldu. Dərzi Temir əlində on iki vərəq dəftər gəlib stulda oturdu. Adil müəllim ilan vuran adam kimi diksindi, yavaş, xırıltılı səslə:

-Rafiq ora baxın, sən öləsən, pul yığırlar.

Rafiq müəllim qapıya tərəf baxanda dəmirçi Əli ayağa durub, bir yüzlük uzadaraq amiranə səslə:

-Temir yaz, dəmirçi Əli, yüz manat!

Ortalıqda hərlənən arıq, çəlimsiz, uzunboy bir oğlan pulu alıb Temirə verdi. Əlində hündüşka budunu iştahla dişinə çəkən Rafiq müəllim səksəndi, əlindəki bud boşqaba düşüb, şaqqıldadı. O yanındakı Elxan müəllimə pıçıltı ilə:

-Yaxşı biabır olduq, üstündə pulun var?

Elxan müəllimin cibində iyirmi doqquz manat pulu var idi. Onun da on altı manatın verib uşağa hədiyyə almışdı, indi cibində vur-tut on üç manat pul qalmışdı.

-On üc manatım var.

-Nə danışırsan, deməksən də bizim gündəsən, bizdə də cəmi dörd manat var.

Bu nə gün idi düşdük, camaat içində rüsvay olacağıq.

Adil müəllimin qaşqabağı süfrəni süpürdü, kabab boşqabını geri itələdi:

-Qılçamız qırılaydı, bura gəldiyimiz yerdə.

Dəmirçi Əli oturan kimi yanındakı yoldaşı durdu:

-Dərzi Ramiz yüz manat!

-Dəllək Ərşad əlli manat!

-Pinəçi Əli qırx manat!

Sonra ardıcıllıqla məclis iştirakçıları ayağa durub pulun miqdarını deyərək, ortalıqda hərlənən uzundıraz oğlana verir, o, da aparıb dərzi Temirə verərək, həmin adamın adını dəftərə yazdırırdı.

Müəllimlərin üçü də xəcalət tərinə batmışdı. Növbənin Rafiq müəllimə çatmasına bir neçə nəfər qalmışdı. Pul yazdıranlar hələ iyirmi beş manatdan aşağı düşmürdü. Sırada birinci Rafiq müəllim, sonra isə Adil müəllimlə Elxan müəllim əyləşmişdi. Elxan müəllim birdən fikirinə nə gəldisə Rafiq müəllimə pıçıldadı:

-Dur yerimizi dəyişək.

-Niyə, ə, yoxsa pulun var, kişisən, mən ölüm, bizi biabır eləmə, nəyin varsa, bölək, üçümüz də yazdıraq.

-Rafiq sən öləsən on üccə manatım var, ancaq narahat olmayın, yeməyinizi yeyin, hamıdan hörmətli biz olacağıq, sən dur, yerimizi dəyişək.

Rafiq müəllim bir az təskinlik tapdı, budu götürüb yemək istədi, lakin boğazından keçmədi, qaytarıb yerinə qoyaraq:

-Elxan müəllim bax haa:- dedi.

Rafiq müəllim cavanlığında çox vurub-tutan olmuşdu, indi, bəlkə də, belə deməkdə səsində bir hədə-qorxu var idi...

Yerlərini dəyişdilər. Növbə müəllimlərə çatanda hamının baxışları onlara dikildi. Elxan müəllim şəstlə ayağa durub sənətkarlardan da bərk qışqırdı:

-Elxan müəllim, bir dəst hədiyyə, çatıb!

Adil müəllim durdu:

-Adil müəllim, bir dəst hədiyyə, çatıb!

Rafiq müəllim heç Adil müəllim oturmamış çox gurultulu səslə:

-Temir yaz, Rafiq müəllim, bir dəst hədiyyə, çatıb!

Sonra oturub iştahla budu yenidən dişinə çəkdi. Elxan müəllimə pıçıltı ilə:

-Halal olsun, sənə bir qonaqlıq borclu,-deyib badəsini, götürdü.

-Adil, süz, səbəbkarın, Elxan müəllimin, sağlığına içək.

Hamı həsədlə çox yüksək əhvalda olan müəllimlərə baxıb biri-birinə pıçıldadı:

-Əyə, görəsən müəllimlər nə gətiriblər?

-Hər halda adlarına layiq hədiyyələr olar, hörmətli adamlardır.

-Ə, bəyəm biz hörmətsizik, görün kimlərlə oturub, çörək kəsirik...

-Allah belə müəllimləri başımızın üstündən əksik eləməsin.

-Amin, amin,- hər-yerdən pıçıltılar gəldi.

...Məclis dağıldı. Hamı bir-bir ayağa durub qapıdan çıxmaq istəyəndə dəmirçi Əlinin yenə də amiranə səsi eşidildi:

-Ayə, müəllimlərə yol verin!

Yerdən dilləndilər:

-Müəllimlərə yol verin!

-Müəllimlərə yol verin!

Hər üç müəllim adamların həsəd dolu mehriban baxışlarının müşayiəti ilə şəstlə məclisi tərk etdilər, sonra qalan adamlar bir-bir otaqdan çıxdılar.